# Sənətinin fədaisi



Savadlı müəllimləri olan cəmiyyət yaxşı da övladlar boya-başa çatdırar. Bu sənəti qəlbən sevən, həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr edənlərdən biri də Rasim Əhməd oğlu Hüseynovdur. O, 1954-cü ildə Qazax rayonunun Aşağı Əskipara kəndində müəllim ailəsində dünyaya gəlmişdir. 1972-ci ildə kənd orta məktəbini bitirərək indiki Azərbaycan Texniki Universitetinə daxil olmuşdur. Uşaqlıqdan riyaziyyata xüsusi marağı, onu burada təhsilini yarımçıq qoyub Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə aparmışdır. 1977-ci ildə ali məktəbi bitirən Rasim Hüseynov 1977-1986-cı illərdə Daşkəsən, sonra isə Qəbələ rayonlarında müəllim, direktor müavini işləmişdir. 1989-cu ildən Xırdalan şəhər 2 nömrəli tam orta məktəbində çalışır. Təlim-tərbiyə işləri üzrə direktor müavinidir. Nümunəvi işi, daim yeniliyə can atması, ictimai həyatdakı fəal mövqeyi, şəxsi nüfuzu rəhbərliyin diqqətindən yayınmayıb.

Rasim müəllim təhsillə bağlı keçirilən müxtəlif seminarlarda, konfranslarda, pedaqoji şuralarda irəli sürdüyü dəyərli təklif və tövsiyələri ilə tanınıb. Şagirdlərin yolunda hər bir çətinliyə dözüb, valideynlərin ümid və inamını qazanıb.

Məlum olduğu kimi, müasir təhsil modeli yaddaş məktəbindən təfəkkür məktəbinə keçidi təmin edir. Şagirdlərdə anlama, tətbiq, sintez, analiz, dəyərləndirmə kimi idrak qabiliyyətlərinin formalaşmasına imkanlar açır. Rasim müəllim də yeni fənn kurikulumun tətbiqində fəal təlim metodlarından istifadəyə üstünlük verir. Bu metodlar şagirdlərə verilmiş biliyin bacarığa çevrilməsinə imkan yaradır. Yaradıcı müəllim şagirdlərin təfəkküründə mühüm amil olan fənlərarası inteqrasiyaya da böyük diqqət yetirir. O, həmçinin yeni metodların yaradıcı tətbiqi zamanı şagirdlərin maraq və bacarıqlarına uyğun iş formalarını seçir. Təhsil ocağında şagirdlərin hərtərəfli şəxsiyyət kimi formalaşmasına xüsusi qayğı və diqqət yetirilir. Rasim müəllimin çalışdığı Xırdalan şəhər 2 nömrəli tam orta məktəb şagirdlərin taleyində, həyatında mühüm rol oynayan, əvəzsiz xidmətləri ilə onların yaddaşında iz qoyan, sayılıb-seçilən təhsil müəssisəsidir. Məktəb öz uğurları ilə təhsilimizə yeni-yeni töhfələr verməkdədir. Ötən illərdə Təhsil Nazirliyi tərəfindən keçirilən “İlin ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmuşdur. Hər il bu məktəbi bitirən məzunların əksəriyyəti ölkənin və dünyanın nüfuzlu ali məktəblərinə daxil olurlar. Bu uğurlarda pedaqoji kollektivin bütün üzvləri kimi, Rasim müəllimin də əməyi az deyil. Məktəbin direktoru Ədalət xanım Camalova söhbət zaman bildirdi ki, Rasim müəllim bir müavin kimi üzərinə düşən vəzifələrin yerinə yetirilməsində fəal iştirak edir, gənclərə tövsiyələrini verir, təlim-tərbiyənin keyfiyyətini yüksəltmək üçün verdiyi təkliflərə hörmətlə yanaşılır.

Rasim Hüseynovun gərgin əməyi, aramsız araşdırmaları, səmərəli pedaqoji fəaliyyəti, rayonun ictimai həyatındakı fəal iştirakı müxtəlif vaxtlarda layiqincə dəyərləndirilib.

O, Təhsil Nazirliyi tərəfindən riyaziyyat kitabları dəsti ilə mükafatlandırılıb. Abşeron Rayon Təhsil Şöbəsinin “İlin ən yaxşı təlim-tərbiyə işləri üzrə direktor müavini” müsabiqəsinin diplomuna, Abşeron Rayon İcra Hakimiyyətinin fəxri fərmanına layiq görülmüşdür.

Rasim müəllim həm də qayğıkeş ailə başçısı, mehriban atadır.

**Ramiz KƏRİMOV.**